**MİLLİ AVİASİYA AKADEMİYASI**
**MAGİSTRATURA VƏ DOKTORANTURA ŞÖBƏSİ**

# MAGİSTR DİSSERTASİYALARININ HAZIRLANMASI VƏ MÜDAFİƏSİ ÜZRƏ

# METODİK VƏSAİT

Milli Aviasiya Akademiyasının Elmi-metodik şurasının “10” oktyabr 2017-ci il tarixli iclasının qərarı ilə çapı tövsiyə edilmişdir (protokol № 11/17)

**Tərtib edənlər:**
X.İ. Abdullayev, R.M. Muxtarov, N.V. Qocayeva,
Ə.N. Kazımova, L.S. Ələsgərova

**Rəyçilər:**
A.T. Rəhimov - t.e.d., Azərbaycan Texniki Universitetinin Radiotexnika və televiziya sistemləri kafedrasının professoru

M.R. Mustafayev - t.e.d., professor, Milli Aviasiya Akademiyasının Tədrisin təşkili və elmi kadrların hazırlığı idarəsinin rəisi

**Magistr dissertasiyalarının hazırlanması və müdafiəsi üzrə metodik vəsait.** Bakı, Milli Aviasiya Akademiyasının Poliqrafiya Mərkəzi, 2017. - 56 səh.

Metodik vəsait Milli Aviasiya Akademiyasında bütün ixtisaslar üzrə təhsil alan magistrantlar və professor-müəllim heyəti üçün nəzərdə tutulmuşdur. Vəsait dissertasiya işinin hazırlanmasına və müdafiəsinə köməklik məqsədi daşımaqla özündə magistr dissertasiyasının məzmununa, həcminə və strukturuna olan ümumi tələbləri, elmi rəhbərlik və qiymətləndirmə meyarlarını ehtiva edir.

Metodik vəsait Azərbaycan Respublikası Təhsil Nazirliyinin tələbləri əsasında, mövcud qanunvericiliyə uyğun hazırlanmışdır.

## Mündəricat


Ümumi müddəalar ........................................................ 5
Magistr dissertasiyasına qoyulan tələblər .................... 6
Magistr dissertasiyası mövzularının seçilməsi və təsdiq olunması ............................................................ 8
Magistr dissertasiyası rəhbərinin vəzifələri ................ 9
Dissertasiya işinin məzmunu və strukturu .................. 11
Magistr dissertasiyasının yazılış qaydaları .................. 19
Magistr dissertasiyası üzrə referatın tərtib edilməsi .. 22
Magistrantın fərdi iş planı ............................................ 24
Magistr dissertasiyalarının ixtisas kafedrasında ilkin müdafiəsinin təşkili ...................................................... 25
Magistr dissertasiyasına rəylərin verilməsi ................. 29
Magistr dissertasiyasının İxtisaslaşdırılmış şurada müdafiəsi ..................................................................... 30
Magistr dissertasiyasının qiymətləndirilməsi ............. 35
İstifadə olunmuş ədəbiyyat ........................................... 37
Əlavələr ........................................................................... 40

## Ümumi müddəalar

Yekun dövlət attestasiyası magistratura səviyyəsində əsas təhsil proqramının məcburi hissəsidir və məzunların peşə hazırlığı səviyyəsinin ali peşə təhsilinin dövlət təhsil standartının tələblərinə uyğunluğunun müəyyən edilməsinə yönəlmişdir. Yekun dövlət attestasiyasının reqlamenti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"na əsasən müəyyən edilir.

Magistr dissertasiyasının nəticələrin məcmusu magistrantın elmi səviyyəsini müəyyən etməyə imkan verməli və onun elmi məsələləri sərbəst həll etmək üçün bacarıq və vərdişlərinin olmasını göstərməlidir.

Yekun peşə qiymətləndirməsi işi kimi magistr dissertasiyasının əsas məqsədi magistrantlarda kreativ düşünmənin və seçilmiş peşə fəaliyyəti sferasında müstəqil elmi axtarış aparmaq bacarığının inkişaf etdirilməsidir.

**"Magistr"** sözü latın mənşəli olub "müəllim", "mürəbbi", "rəhbər" mənalarını ifadə edir. Qədim Romada "magistr" dərəcəsi mühüm vəzifə səlahiyyətləri olan şəxslərə verilirdi. Bu söz, həmçinin "ustad" kəlməsinin sinonimi, öz işinin mahir bilicisi, ustası kimi də qəbul edilir. Musiqi termini olan "maestro" sözü də

“magistr” sözündən meydana gəlmiş, musiqi sahəsinin bilicisi kimi başa düşülür. XIX əsrdən başlayaraq Avropa ölkələrinin bir çoxunda bu ad fəlsəfə doktoru dərəcəsi ilə əvəz edilmişdir.

Hazırda “magistr” ali təhsil sistemində bakalavrdan sonra verilən ikinci akademik dərəcədir. Bu dərəcəni rəsmi olaraq təsdiqləyən diplom magistr dissertasiyalarının müdafiəsi üçün Milli Aviasiya Akademiyası rektorunun əmrinə müvafiq olaraq yaradılmış İxtisaslaşdırılmış elmi şuraların qərarı əsasında verilir.

Magistratura səviyyəsində təhsil magistr dissertasiyasının müdafiəsi ilə yekunlaşır. Magistr dissertasiyasının müdafiəsinə ixtisasın tədris planında verilmiş bütün fənləri tam mənimsəmiş və müvəffəq qiymət almış magistrantlar buraxılır.

Magistr dissertasiyası – magistrantın müstəqil elmi və pedaqoji işə hazırlığını nümayiş etdirən, elmi rəhbərin göstəriş və tövsiyələri əsasında magistr dərəcəsi almaq üçün işlənmiş elmi-tədqiqat işidir. Bu işin icrası magistranta təhsil illəri ərzində qazandığı bilikləri sistemləşdirməyə, möhkəmləndirməyə, ixtisas üzrə nəzəri biliklərini və təcrübi bacarıqlarını daha da genişləndirməyə, konkret elmi-pedaqoji, texniki, iqtisadi, istehsal və digər məsələləri həll etməyə imkan verməklə onların müstəqil işləmək bacarığını, müasir elmi-tədqiqat metodlarından istifadə etmək və eksperiment aparmaq qabiliyyətini inkişaf etdirir.

## Magistr dissertasiyasına qoyulan tələblər

Magistr dissertasiyası elmi rəhbərin rəhbərliyi altında magistrantın müstəqil yerinə yetirdiyi elmi-tədqiqat və ya təcrübi-konstruktor işidir. Bu iş magistrantdan analitik, sintetik, tənqidi təfəkkür tərzi, elmi, ümumi tədqiqat metodları əsasında xüsusi metodikanın hazırlanması bacarığı, ümumiləşdirmələr etmək, nəticələr çıxarmaq qabiliyyəti tələb edir. Dissertasiya işinin yazılmasında əsas məqsəd magistrantın müstəqil elmi-tədqiqat işləri aparması, müstəqil elmi axtarışlar etməsi, elmi problemlərə peşəkarcasına yanaşması və onun həlli yollarını öyrənməkdir.

Magistr dissertasiyasının hazırlanması və müvəffəqiyyətlə müdafiəsi magistr hazırlığı proqramının yerinə yetirilməsinin məcburi şərtidir. Hazırlanmış dissertasiya aşağıdakı tələblərdən birinə cavab verməlidir:

- işdə baxılan müvafiq elmi istiqamət üçün mühüm əhəmiyyəti olan hər hansı məsələnin yaradıcı həlli verilməli;
- işdə mühüm tətbiqi əhəmiyyəti olan texniki, iqtisadi və texnoloji işləmələrin təkmilləşdirilmiş elmi şərhi verilməlidir.

Magistr dissertasiyasında magistrantın əldə etdiyi nəticələr elmi və praktiki cəhətdən əsaslandırılmalı, mövcud faktlarla müqayisəli qiymətləndirilməli və onların istifadəsi üçün tövsiyələr verilməlidir.

Magistr dissertasiyasının hazırlanması müddətində

yüksək ixtisaslı mütəxəssisin elmi rəhbərliyi ilə magistrant müstəqil olaraq elmi-tədqiqat işləri yerinə yetirir, mövzu ilə bağlı ədəbiyyatları öyrənir, qeydlər aparır, tədris müəssisələrində və elmi-tədqiqat institutlarında tədqiqat işi ilə bağlı eksperimentlər aparır, elmi-pedaqoji jurnallarda məqalələr çap etdirir, elmi konfranslarda, tələbə elmi cəmiyyətlərində məruzələrlə, tezislərlə çıxışlar edir. Magistrant dissertasiya işi üzrə ən azı 1 elmi məqalə və 1 konfrans materialı çap etdirməlidir.

Dissertasiya işinin uğurla hazırlanmasına magistrantın müəyyən pedaqoji biliklərə malik olması, elmi-tədqiqat və pedaqoji təcrübələrdə iştirak etməsi, tədqiqatçılıq qabiliyyəti, yaradıcılıq bacarıqları, referat, sərbəst iş yazması, kompleks biliklərə, geniş dünyagörüşünə sahib olması, Tələbə Elmi Cəmiyyətinin işində aktiv iştirakı və ən başlıcası isə sərbəst şəkildə tədqiqat işi yazmaq təcrübəsinə malik olması kimi amillər ciddi təsir göstərir.

Magistrant yazdığı dissertasiya işinin əsas mahiyyətini, mövzunun aktuallığını, tədqiqatın əsas istiqamətlərini, elmi yeniliyini, nəzəri və praktik əhəmiyyətini, əldə etdiyi nəticələri sərbəst və müstəqil olaraq şərh etməyi bacarmalıdır.

Magistr dissertasiyasında şərh olunan məlumatların düzgünlüyü və plagiat olmaması üçün magistrant məsuliyyət daşıyır. Tədris dilində yazılan dissertasiyada magistrant istifadə etdiyi materiallarla, ayrı-ayrı nəticələ-

rin mənbələrinə və müəlliflərinə uyğun qaydada istinad etməlidir. Müəllifinə və ədəbiyyatına istinad olunmadan özgə materiallardan istifadə edildikdə, dissertasiya müdafiə ilə bağlı istənilən baxılma mərhələsində geri qaytarılır.

## Magistr dissertasiyası mövzularının seçilməsi və təsdiq olunması

Magistr dissertasiyasının uğurla tamamlanması dissertasiya mövzusunun seçilməsindən bilavasitə asılıdır. Mövzu magistrantın şəxsi elmi və praktiki maraqlarına uyğun olaraq sərbəst təyin edilir. Bu məqsədlə Milli Aviasiya Akademiyasının ixtisas kafedralarında müvafiq istiqamətli dissertasiya mövzuları və tədqiqat istiqamətləri hazırlanır və magistrantlara təqdim olunur. Magistrant özü də mövzu təklif edə bilər. Bu zaman magistrant tərəfindən tədqiqatın məqsədəuyğunluğu və aktuallığı əsaslandırılmalıdır. Magistrantın elmi rəhbəri mövzu seçimində magistranta lazımi köməklik göstərməlidir.

Bir mövzu üzrə iki və daha çox işin yazılmasına icazə verilmir. Əgər eyni bir mövzu bir neçə magistrant tərəfindən seçilmişsə magistr proqramının rəhbəri mövzunu daha dərin və düzgün əsaslandıran magistranta təhkim edir.

Mövzu seçilərkən onun aktuallığına xüsusi fikir verilməli, həmçinin mövzunun ədəbiyyatlarda necə əks

olunması, tədqiqatçılar tərəfindən işlənmə səviyyəsi də nəzərə alınmalıdır.

Dissertasiyanın tematikası tədqiqatın həm nəzəri, həm də praktiki istiqamətlərini əhatə etməlidir. Nəzəri istiqamətlərin seçimi özünün müəyyən elmi yeniliyi, istiqaməti və tədqiq metodikası ilə fərqlənməlidir.

Magistr dissertasiyaları bir qayda olaraq tədris ilinin birinci semestrinin ilk 3 ayı ərzində seçilir. İlk öncə magistrantın və elmi rəhbərinin birgə seçdiyi (razılığa gəldiyi) dissertasiya mövzusu kafedra iclasında müzakirəyə çıxarılır. Kafedra iclasının çıxarışı əsasında mövzu müvafiq fakültə elmi şurasında müzakirə olunur və fakültə elmi şurasının çıxarışı ilə Magistratura və doktorantura şöbəsinə təqdim olunur. Mövzu və elmi rəhbər Magistratura və doktorantura şöbəsində əmrləşdirilərək MAA rektoru tərəfindən təsdiq olunur. Əmrlə təsdiq olunmuş mövzu sonradan zərurət yarandıqda yalnız fakültə şurasının qərarı əsasında (magistr dissertasiyasının müdafiəsi gününə 3 aydan çox müddət qalarsa) dəyişdirilə bilər.

## Magistr dissertasiyası rəhbərinin vəzifələri

Magistranta dissertasiya işinin hazırlanmasında və müdafiəsində nəzəri və praktiki köməkliyin göstərilməsi məqsədilə MAA rektorunun əmri ilə elmi rəhbər təyin olunur. Elmi rəhbər mövzunun seçimində və onun planı-

nın hazırlamasında magistranta praktiki tövsiyələrini verir, tədqiqatların həyata keçirilmə metodikasının seçimində yardım göstərir. O, işin icra edilməsi üçün faktiki lazım olacaq ədəbiyyatların və materialların seçilməsində öz məsləhətlərini verir. Elmi rəhbər magistrantın fərdi iş planında semestr ərzində yerinə yetirilməli olan tapşırıqlarını qeyd edir və onların yerinə yetirilmə vəziyyətini mütəmadi yoxlayır, dissertasiya işinin qrafikə uyğun olaraq icra edilməsinə və onun gedişatına sistematik nəzarəti həyata keçirir. Yerinə yetirdiyi işlər üzrə magistrant hər semestrin sonunda kafedrada attestasiyadan keçirilir.

Elmi rəhbər magistrantın ilkin müdafiəyə hazırlığını yoxlayır, öz məsləhətlərini verir. Dissertasiya işi magistrant tərəfindən tamamlandıqdan sonra onun yerinə yetirilmə səviyyəsini və tələblərə uyğunluğunu qiymətləndirərək, magistr işinə rəy verir. Rəy müsbət olduqda dissertasiya işi kafedra üzrə ilkin müdafiəyə buraxılır. Əgər magistr işinə magistrantın elmi rəhbəri mənfi rəy yazarsa, kafedra müdiri, magistr işlərinin yazılması üzrə tələbləri, elmi rəhbərin rəyini, kənar resenzentin fikirlərini nəzərə alaraq magistrantın dissertasiya müdafiəsinə buraxılması haqqında qərar qəbul edir.

## Dissertasiya işinin məzmunu və strukturu

Dissertasiyanın strukturu dedikdə onun ilk səhifəsindən son səhifəsinədək tədqiqatın əsas hissələrinin, bölmələrinin, fəsillərinin, paraqraflarının, bəndlərinin ardıcıllığı, sistemliliyi başa düşülür. Bura, həmçinin tədqiqatın nəticələri, istifadə olunmuş ədəbiyyat və əlavələr də daxildir.

Magistr dissertasiyasının quruluşu əsas etibarilə aşağıdakı kimi olur:

1. Titul vərəqi;
2. Mündəricat;
3. İxtisarların (işarələmələrin) siyahısı (zəruri olduqda);
4. Giriş (İşin ümumi xarakteristikası);
5. Əsas hissənin fəsilləri və paraqrafları;
6. Nəticə və təkliflər;
7. İstifadə olunmuş ədəbiyyat siyahısı;
8. Əlavələr (zəruri olduqda).

Dissertasiya çap olunarkən qeyd olunan ardıcıllıq gözlənilməlidir.

***Titul vərəqi*** dissertasiyanın ilk səhifəsi hesab olunur. Bu səhifə nömrələnmir. Onun tərtibinə ciddi əməl edilməlidir *(Əlavə 1)*. Titul vərəqində göstərilən mövzunun adı əmrdə verilmiş adla eyni olmalıdır.

***Mündəricat*** titul vərəqindən sonra gəlir və səhifələri

göstərilməklə dissertasiya işinin əsas başlıqlarını əhatə edir: Giriş, fəsillər və onların paraqrafları, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələr. Mündəricatdakı başlıqlar böyük hərflə başlayır və sonunda nöqtə qoyulmur, onlar mətndəki başlıqlarla eyni olmalıdır.

***İxtisarların siyahısı.*** Əgər dissertasiya işində xüsusi terminlərdən, ixtisarlardan, yeni simvollardan, işarələmələrdən və s. istifadə edilirsə, onlar "İxtisarların (və ya işarələmələrin) siyahısı" başlığı altında ayrıca vərəqdə dissertasiyanın əvvəlində verilməlidir. Siyahı sütun şəklində yazılır, sütunun sol tərəfində (əlifba sırası ilə) ixtisarlar, sağ tərəfində isə onun dəqiq açılışı verilir. Əgər dissertasiyada xüsusi terminlər, ixtisarlar, simvollar, işarələr üç dəfədən az təkrar edilirsə, onda onlar siyahıya əlavə edilmir, mətndə adı birinci dəfə çəkilən kimi onların açılışı verilir.

Dissertasiyanın ***"Giriş"i*** işin ümumi xarakteristikasını özündə ehtiva edən çox əhəmiyyətli və məsuliyyətli hissədir. Belə ki, dissertasiyanın girişindən tədqiqatın məzmunu, əhəmiyyəti, səviyyəsi haqqında müəyyən təsəvvürə malik olmaq olur.

Girişdə əsas olaraq aşağıdakılar barədə məlumat verilir:

- Mövzunun aktuallığı;
- Tədqiqatın obyekti və predmeti;

- Tədqiqatın əsas məqsədi və vəzifələri;
- Tədqiqatın elmi yeniliyi;
- Tədqiqatın praktiki əhəmiyyəti;
- Tədqiqatın nəzəri və metodoloji bazası.

***Mövzunun aktuallığı.*** Dissertasiyanın aktuallığının izahı lakonik olmalıdır. Mövzunun aktuallığı konkret faktlarla, məntiqi təfəkkürlə izah edilməli, başqa sözlə desək, mövzunun əhəmiyyəti, vacibliyi əsaslandırılmalıdır.

***Tədqiqatın obyekti və predmeti.*** Obyekt problemli situasiyanı yaradan və öyrənilməsini şərtləndirən proses və hadisəni, predmet isə həmin obyektin hüdudlarında olanları əhatə edir. Obyekt və predmet elmi-tədqiqat prosesinin kateqoriyaları olaraq öz aralarında ümumi və xüsusi nisbəti bölüşürlər. Obyektdə tədqiqat predmetinə xidmət göstərən hissə ayrılır. Predmet isə tədqiqat işinə təyinat verir və bu baxımdan da dissertasiyanın titul vərəqində təsbit olunan adla uzlaşır.

***Tədqiqatın əsas məqsəd və vəzifələri*** bölümündə tədqiqatın məqsədi və ona nail olmanın imkan və üsulları öz əksini tapır. Məqsəd həlli tələb olunan məsələnin elmi və tətbiqi xarakteri əsasında müəyyənləşdirilir. Tədqiqatın vəzifələri hissəsi işin strukturundan asılı olaraq konkret istiqamətləri göstərir və bir qayda olaraq "öyrənilir, müəyyən edilir, təyin olunur, şərhi verilir, göstərilir, araşdırılır, ümumiləşdirilir və sair" bu kimi ifadə sonluqları əsasında formalaşdırılır.

***Tədqiqatın elmi yeniliyini*** orijinal elmi nailiyyət və praktiki tətbiq dəyərlərini ifadə edərək bir cümlə əsasında formalaşdırılır. Onun təsnifat strukturu verildikdə isə hər bir istiqamət ayrı ayrılıqda qeyd olunur. Tədqiqatçı çalışmalıdır ki, hər bir fəsil üzrə müəyyən elmi yeniliyə nail olunsun və onlar tədqiqat vəzifələrindən sayca az olmaqla fərqli məzmun ifadə etsin.

***Tədqiqatın praktiki əhəmiyyəti*** bölməsində dissertasiyanın mahiyyətindən irəli gələn ümumi ifadələrlə yanaşı, eyni zamanda onun konkret, aydın təcrübi əhəmiyyəti, mümkün qədər tətbiq sahəsi göstərilməlidir.

Giriş bölməsinin əsas hissələrindən biri ***tədqiqatın nəzəri və metodoloji bazasıdır***. Tədqiqatın metodoloji əsası dedikdə, magistr dissertasiyasının yazılması üçün magistrantın əsaslandığı elmi-metodoloji prinsiplər, qaydalar, yanaşmalar, elmi bilik üsullarının məcmusu nəzərdə tutulur. İşdə empirik (müqayisə, ölçmə, eksperiment) və nəzəri (analiz və sintez, ideallaşdırma, abstraksiya) tədqiqat metodlarından istifadə edilə bilər. Dissertasiya işində magistrantın tətbiq etdiyi hər bir metod təfərrüatı ilə əsaslandırmalıdır.

Tədqiqatın nəzəri bazasının təsviri zamanı dissertasiya işində istifadə olunan (elmi əsərlərin müəlliflərinin adları göstərilməklə) müddəalar, ideyalar, konsepsiyalar, nəzəriyyələr qeyd olunmalıdır.

Fəsillərin başlıqları ərəb rəqəmləri ilə göstərilməklə

böyük hərflərlə mərkəzdən yazılır. Paraqrafların başlıqları isə sətri hərflərlə (birinci baş hərf istisna olmaqla) mərkəzdən yazılmalıdır. Başlıqların yazılışında sözlərin hecalara ayrılaraq bir sətirdən digərinə keçirilməsinə yol verilmir. Başlığın axırında nöqtə qoyulmur. Əgər başlıq iki cümlədən ibarətdirsə, onları nöqtə qoymaqla bir-birindən ayırmaq lazımdır. Fəslin paraqrafları belə göstərilir. Məsələn: 1.1. Yəni birinci fəslin birinci paraqrafı.

Fəsil və paraqraf arasındakı məsafə 2 interval olmalıdır. Hər fəsil yeni səhifədən başlanmalıdır.

**Birinci fəsildə** tədqiq olunan problemin metodoloji əsaslarının nəzəri yanaşmalarının təhlili verilməli, tədqiqat obyekti və predmetinin dəqiq şərhi göstərilməlidir. Eyni zamanda tədqiqat sahəsində mövcud yanaşma və üsullar təhlil olunaraq, metodoloji və təhlili əsaslandırmalarla müvafiq elmi və tədris ədəbiyyatlarında göstərilən nəzəriyyə və praktikanın başlıca inkişaf tendensiyaları da verilməlidir. Dissertasiyanın birinci fəslində tədqiqatın ümumi cəhətlərini, əsas istiqamətlərini aydın görmək olur.

**İkinci fəsildə** problemin konkret təhlili göstərilir. Təhlil zamanı tədqiq olunan sahənin vəziyyətini və dinamikasını xarakterizə edən müasir statistik məlumatlardan, baxılan elm sahəsinə aid hesabat materiallarından geniş istifadə olunur. Dissertasiyanın bu bölməsində baxılan problemin hər bir tədqiqat istiqaməti üzrə konkret təhlil nəticələri əks olunmalıdır.

**Üçüncü fəsildə** aparılan tədqiqatın (eksperimental tədqiqatların) nəticələri qiymətləndirilir və təqdim olunur. Bu bölmədə magistrant apardığı tədqiqatın təhlilinin əsaslandırılmış nəticələrini qeyd etməlidir. Burada tədqiq edilən sahənin fəaliyyət mexanizminin təkmilləşdirilməsini əsaslandıran metodik, təşkilati və texnoloji tədbirlər təklif olunur.

Magistrant tədqiqat işinin hər bir bölməsinə baxılan problemə uyğun ad verməlidir. Fəsillərdaxili bölmələrin sayı ikidən az ola bilməz. Zəruri elmi-metodoloji əsaslandırmalarla tədqiqatın fəsillərinin sayı artırıla bilər.

***Nəticə və təkliflər*** bölməsində aparılan təhlil üzrə əldə edilmiş konkret nəticələrin yığcam şərhi verilir. Bölmələr üzrə əldə edilmiş nəticələr elmi, metodoloji əsaslandırılmış və məntiqi mahiyyətli səciyyə daşımalıdır. Bununla belə burada aparılan hesablama və təhlil üzrə yalnız yekun nəticələr və maraq doğuran müvafiq təklif və tövsiyələr əks etdirilir. Ümumilikdə, nəticə və təkliflər magistrant tərəfindən qoyulan məqsəd və vəzifələrə uyğun olaraq problemin ardıcıl həllini cavablandırmalı və tədqiqatın dolğun şəkildə bitməsini qiymətləndirməlidir.

***İstifadə olunmuş ədəbiyyat siyahısı.*** Dissertasiyanın yazılma prosesində magistrant müvafiq istiqamətdə mövcud mənbələrə istinad etməlidir. Bunun üçün də o, istinad etdiyi və sitat gətirdiyi ədəbiyyatın siyahısını tərtib

edir. Ədəbiyyat siyahısı yazıldıqda çap məhsullarının adı ilə yanaşı müəllifin adı, şəhər, nəşriyyat, buraxılış tarixi və səhifələrin sayı göstərilməlidir. Siyahı əlifba sırası ilə ardıcıl olaraq qeyd edilməlidir. Burada ilk olaraq Azərbaycan, türk, rus, digər xaric dillərdə olan ədəbiyyatlar, sonda isə internet resursları göstərilməlidir. Magistrantın dissertasiya mövzusu üzrə çap etdirdiyi elmi işlər işdə öz əksini tapmalı və ədəbiyyat siyahısında qeyd olunmalıdır. Dissertasiyada istinad edilməyən ədəbiyyat siyahıda verilməməlidir.

İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən asılı olaraq verilməlidir. Siyahıya daxil olan mənbələr haqqında məlumat aşağıdakı kimi göstərilir.

Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri müəllifin və ya kitabın adı ilə tərtib edilir, müəlliflər dörd nəfərədək olduqda müəllifin və ya müəlliflərin soyadı və inisialları verilir. Azərbaycan və rus dilində olan istinadlarda müəlliflərin hər iki inisialı, Qərbi Avropa dillərində olan mənbələrdə isə adlarının yalnız birinci hərfi göstərilir. Məsələn: *Ocaqov H.O., Nağıyev N.T., Muxtarov R.M. Mülki müdafiə: Dərslik. - Bakı, Milli Aviasiya Akademiyasının Poliqrafiya Mərkəzi, 2011, 398 s.*

Dörddən çox müəllifi olan və ya ümumiyyətlə müəllifi göstərilməyən kitablar verildikdə (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə göstərilir. Məsələn: *Умственное воспитание дошкольника / Под ред.*

*Н.Н. Поддьякова. - М., Педагогика, 1972, 288 с.*

Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir:

*Авиационная безопасность: Учебное пособие. в 2-х т., Т.1. - Баку, Центр Полиграфии Национальной Академии Авиации, 2014, 460 с.*

Məqalələrin biblioqrafik təsviri iki hissədən - məqalə haqqında məlumatdan və məqalənin dərc edildiyi nəşr orqanı haqqında məlumatdan ibarət olur. Bu hissələr bir-birindən qoşa çəpəki xətlə - «//» ayrılır ki, ondan əvvəl və sonra bir interval qoyulur.

Konfrans materiallarındakı mənbənin biblioqrafik təsviri də iki hissədən ibarət olur. Onlar isə bir-birindən bir çəpəki xətlə - «/» ayrılır ki, ondan əvvəl və sonra bir interval qoyulur. Dörddən çox müəllifi olan məqalələrdə ilk üç müəllifin soyadları və inisialları, sonra isə aşağıdakı ixtisarlardan biri verilir: *Сагдеев Р.З. Перспективы развития аэрокосмической отрасли в мире / Материалы молодежной научно-практической конференции "Февральские чтения – 2016. Творческий потенциал молодежи в решении авиакосмических проблем". - Баку, Центр Полиграфии Национальной Академии Авиации, 2017, с. 9-12.*

Dissertasiyaya istinad edilərkən, əvvəlcə müəllifin soyadı, inisialları, dissertasiyanın adı verilir, iki nöqtədən sonra isə iddia olunan elmi dərəcə, şəhər, nəşr ili və həcmi göstərilir.

Qəzet materiallarına istinad edildikdə, müəllifin soyadı və inisialları, sonra mənbənin adı, qəzetin adı, nəşr olunduğu şəhər, il, gün, ay və ya nömrə göstərilir.

***Əlavələr*** dissertasiyada ədəbiyyat siyahısından sonra, ehtiyac olduqda verilir. İşin məzmununun tələblərindən irəli gələn bir və ya bir neçə əlavə verilə bilər. Əlavələr dissertasiyanın son səhifələridir. Burada əsas hissəyə daxil edilməyən informasiya materialları (hesabat formaları, qrafiklər, sxemlər, cədvəllər, planlar və digər sənədlər) təqdim olunur. Hər bir əlavə yeni səhifədə verilməli və vərəqin üst sağ tərəfində *"Əlavə 1", "Əlavə 2"* və s. yazılır.

**Magistr dissertasiyasının yazılış qaydaları**

Dissertasiyanın mətni kompüterdə Word formatında Times New Roman - 14 şrifti ilə, sətirlərarası interval 1.5 olmaqla A4 *(210×297 mm)* formatlı ağ kağızın bir üzündə çap olunur. Mətndə boş sahələr soldan 30 mm, sağ - 10 mm, yuxarı və aşağı - 20 mm olmalıdır. Dissertasiyanın ümumi həcmi 65 -75 səhifə (şəkillər, cədvəllər, əlavələr və ədəbiyyat siyahısı istisna olmaqla) olmalıdır. Fəsil və paraqraf arasındakı, eləcə də başlıq və mətn arasındakı məsafə 2 interval olmalıdır. Başlığın altından xətt çəkmək olmaz. Şəkillər və cədvəllər A3 (297 x 420 mm) formatda da yerinə yetirilə bilər.

Sözlər arasındakı məsafəni nəzərə almaqla, sətirdəki işarələrin sayı 60-65-dən az olmamalıdır. Səhifədə sətirlərin sayı isə 29-31 olmalıdır.

Magistr dissertasiyasındakı bütün xətlər, hərflər, rəqəmlər və işarələr aydın və eyni qaralıqda olmalıdır.

Dissertasiya tam həcmdə cildlənir. Dissertasiyanın cildi (üz qabığı) şəkilsiz olmalıdır. A3 formatından böyük olan əlavələr cildlənməmiş şəkildə, disk və digər məlumat daşıyıcıları müvafiq qaydada nömrələnərək dissertasiyaya əlavə edilə bilər.

Dissertasiyada səhifələrin nömrələnməsi ərəb rəqəmləri ilə həyata keçirilir. Nömrələnmədə titul vərəqi də nəzərə alınır. Titul vərəqində nömrə yazılmır, ondan sonra gələn səhifədə «2» rəqəmi yazılır və səhifələr (əlavələr, arayışlar, aktlar və s. daxil olmaqla) ardıcıl olaraq nömrələnir. Nömrələr səhifənin yuxarı sağ küncündə qeyd edilir.

İstifadə olunmuş ədəbiyyat siyahısına daxil olan bütün nəşrlər ərəb rəqəmləri ardıcıl olaraq nömrələnir.

Şəkillər mətndə onlara birinci istinad olan abzasdan sonra yerləşdirilməlidir. Şəkil və onun adı mətndən boş sətirlər vasitəsilə ayrılmalıdır. Şəklin nömrəsi və adı şəklin altında yazılır. Nömrə bir-birindən nöqtə ilə ayrılan fəslin nömrəsindən və şəklin ardıcıl nömrəsindən ibarət olur. Məsələn: şəkil 1.1. (birinci fəslin birinci şəkli.

Şəkillər keyfiyyətli olmalıdır. İşdə yalnız kompüterdə yerinə yetirilmiş şəkillərdən və orijinal fotolardan istifadə

etmək olar.

Ölçüləri A4 formatından böyük olan cədvəllər, şəkillər, çertyojlar bir səhifə kimi qəbul edilir və dissertasiyanın sonunda nəticədən sonra onların mətndəki sıra ardıcıllığı ilə yerləşdirilir.

Dissertasiyada verilmiş cədvəllərdə sütun və sətirlərin başlıqları, onların içərisindəki məlumatlar üçün şriftin ölçüsü 12, sətirarası məsafə bir interval olmalıdır. Zərurət yarandıqda cədvəllərdə daha kiçik ölçülü şrift də istifadə edilə bilər.

Cədvəl mətndən bir boş sətir vasitəsilə ayrılmalıdır. Cədvəllər ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir (əlavədə verilmiş cədvəllər istisna olmaqla). Cədvəlin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin nömrəsindən və cədvəlin ardıcıl nömrəsindən ibarətdir, məsələn, Cədvəl 1.3. (birinci fəslin üçüncü cədvəli). Əgər cədvəl iki və daha çox səhifədə yerləşirsə, "Cədvəl" sözü və onun nömrəsi cədvəlin birinci səhifəsinin mərkəzində bir dəfə göstərilir; cədvəlin qalan hissələrinin müvafiq yerlərində "ardı" sözü yazılır. Əgər dissertasiyada bir neçə cədvəl varsa, onda "ardı" sözünün qarşısında cədvəlin nömrəsi yazılır, məsələn: Cədvəl 1.3-ün ardı. Cədvəlin nömrəsi və adı cədvəlin üstündə mərkəzdən, cədvələ simmetrik yerləşdirilir.

Mətndə verilən düsturlar (sayı birdən artıqdırsa) ərəb rəqəmləri ilə ardıcıl nömrələnməlidir. Düsturun nömrəsi

bir-birindən nöqtə ilə ayrılmış fəslin və düsturun ardıcıl nömrələrindən ibarətdir. Düsturun nömrəsi onunla bir səviyyədə səhifənin sağ tərəfində mötərizənin içində yazılır. Məsələn, (2.3) – yəni, ikinci fəslin üçüncü düsturu.

Tənliklər və düsturlar mətndən bir boş sətir vasitəsilə ayrılmalıdır. Tənlik ( və ya düstur) bir sətrə yerləşmədikdə, onun ardı bərabərlik (=), üstəgəl (+), çıxma (-), vurma (x) və ya bölmə (:) işarələrinin hər hansı birindən sonra yeni sətrə keçirilir.

Düsturda rast gəlinən simvolların izahı onların düsturdakı yerləşmə ardıcıllığı nəzərə alınaraq, bilavasitə düsturun altında verilir. Simvolların izahı yeni sətirdə olmalıdır.

Dissertasiya işində istinad olunmuş bütün mənbələr ədəbiyyat siyahısında qeyd olunmalıdır. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi mətndəki istinaddan sonra kvadrat mötərizədə göstərilir. Məsələn: [62].

## Magistr dissertasiyası üzrə referatın tərtib edilməsi

Magistrant dissertasiya işini bitirdikdən sonra müdafiə üçün dissertasiyanın bütün məzmun və kompozisiyasının yığcam icmalını əks etdirən referat hazırlamalıdır.

Referatda əsasən dissertasiyanın aktuallığı, məqsəd və vəzifələri, elmi yeniliyi, praktik əhəmiyyəti, dissertasiyanın ümumi xarakteristikası, əsas ideyaları, nəticələri və

s. göstərilir.

Referatda fəsillər haqqında ayrı-ayrılıqda qısa məlumat verilir. Magistrantın mövzu ilə bağlı çap olunmuş məqalələri, tezisləri, tələbə elmi cəmiyyətində, elmi konfranslarda, seminarlarda çıxışlarının nəticələri referatda qeyd olunur.

Referatın mətni 1,0 intervalla yazılmalı, həcmi 4 (A4 formatı) səhifədən çox olmamalıdır. Mətn Azərbaycan dilində latın əlifbası, Times New Roman -12 şrifti ilə çap olunmalıdır. Referatın mətni boş sahələrin göstərilən ölçüləri gözlənilməklə çap edilir: sol boş sahə - 30 mm, sağ boş sahə - 10 mm, yuxarı və aşağı boş sahə - 20 mm.

Digər müvafiq yazılış qaydası isə dissertasiyanın ümumi tərtibat qaydaları ilə uyğunluq təşkil etməlidir.

Referat dissertasiyanın yazıldığı dildə olmalıdır. Müstəsna hallarda kafedranın razılığı ilə magistrant referatı xarici dillərdən birində yaza və müdafiə zamanı suallara həmin dildə cavab verə bilər.

Referatın titul vərəqi dissertasiyanın titul vərəqinə uyğun olmalıdır. Titul vərəqinin arxasında işin yerinə yetirildiyi kafedra, elmi rəhbərin adı, soyadı, atasının adı, elmi dərəcəsi və elmi adı, həmçinin dissertasiyaya rəy vermiş rəyçinin adı, soyadı, atasının adı, elmi titulları yazılır. Daha sonra dissertasiyanın müdafiə vaxtı və yeri göstərilir (Əlavə 2).

Referatın sonunda dissertasiya işinin annotasiyası

yazılır. Azərbaycan dilində yazılmış dissertasiya işində annotasiya (xülasə, rezüme) ingilis (və ya rus) dilində, rus və ya ingilis dillərində yazılmış dissertasiya işlərinə isə annotasiya Azərbaycan dilində, ayrı səhifədə, bir vərəq həcmində yazılır.

Referat müdafiədən qabaq dissertasiya ilə tanışlıq məqsədilə İxtisaslaşdırılmış şuranın hər bir üzvünə təqdim olunur.

## Magistrantın fərdi iş planı

Magistrant dissertasiya işini yerinə yetirmək üçün elmi rəhbərinin köməkliyi ilə fərdi iş planı işləyib hazırlamalıdır.

Fərdi iş planında hər semestr müddətində görüləcək işlər ayrı-ayrılıqda göstərilir. Burada işin adı, onun yerinə yetirilmə müddəti və icrası barədə qeydlər aparılır. Fərdi iş planında tədris işindən əlavə elmi-tədqiqat işi mərhələlərə bölünür və konkret yerinə yetirilmə müddətləri göstərilməklə qeyd olunur (Əlavə 3).

Fərdi iş planında elmi rəhbərin tapşırıqlarına əsasən dissertasiya mövzusuna aid ədəbiyyatları araşdıqmaq, işin aktuallığını, predmet və obyektini, əsas məqsəd və vəzifələrini təyin etmək, məqalələri yazıb dərc etmək, konfranslarda və seminarlarda iştirak etmək, dissertasiyanı tərtib etmək, ilkin müdafiəyə təqdim etmək və s. işlər öz əksini tapmalıdır.

Magistrantın fərdi iş planı Magistratura və doktorantura şöbəsinin müdiri tərəfindən təsdiq edilir.

Hər semestrin sonunda magistrant fərdi iş planının yerinə yetirilməsi barədə ixtisas kafedrasında yaradılmış attestasiya komissiyasına hesabat verir. Attestasiyanın nəticəsi fərdi iş planında qeyd olunur və attestasiya komissiyası üzvləri tərəfindən imzalanır. Attestasiyadan keçmiş magistrant növbəti semestr üçün nəzərdə tutulan elmi rəhbərin verdiyi tapşırıqlar və onların yerinə yetirilmə tarixini fərdi iş planında qeyd etməlidir.

## Magistr dissertasiyalarının ixtisas kafedrasında ilkin müdafiəsinin təşkili

Magistr dissertasiyalarının ilkin müdafiəsi əsas müdafiədən 1 ay əvvəl ixtisas kafedrası tərəfindən təşkil edilir.

Magistrant dissertasiya işini müvafiq tələblərə uyğun yazıb bitirdikdən sonra referatla birlikdə elmi rəhbərin ixtiyarına verir. Elmi rəhbər işi yoxladıqdan sonra yazılı rəyi ilə birlikdə ilkin müdafiə üçün kafedraya təqdim edir.

Dissertasiya işinin ilkin müdafiəsi zamanı kafedrada təşkil olunmuş müdafiə komissiyası magistrantın çıxışını dinlədikdən sonra yekun qərara gələrək qiymətləndirmə həyata keçirir. Magistr dissertasiyasının kafedrada ilkin müdafiəsinin qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə aparılır:

1. Dissertasiya işinin məzmunu (0-20 bal);
2. Dissertasiya işinin tərtibatı (0-10 bal);
3. Magistrantın məruzəsi (0-10 bal);
4. Magistrantın sualları cavablandırması (0-10 bal).

***Dissertasiya işinin məzmununun qiymətləndirilməsi meyarı:***

- *mövzunun açılma dərəcəsi.* Dissertasiyada mövzu üzrə material təqdim edilməli, uyğun məqsəd və vəzifələr həll edilməli, bütün fəsillər və paraqraflar adlarına və məzmununa görə mövzu ilə uzlaşmalıdır;

- *müstəqillik və nəzəri müddəaların təhlilinin keyfiyyəti*. Dissertasiyada təhlil edilən kateqoriyalara, proseslərə, obyektlərə müxtəlif müəlliflərin yanaşmaları təhlil olunmalıdır;

- *alınmış nəticələrin elmi, tətbiqi, tədris-metodiki həllərinin orijinallığı və yeniliyi.* Dissertasiya işi yeniliyi və müəllifin orijinal işlənmə elementlərini özündə ehtiva etməlidir. Növündən və həll edilən məsələlərdən asılı olaraq dissertasiyanın tətbiqi yeniliyi (praktik problemin yeni orijinal həlli) və ya tədris-metodiki yeniliyi (tədris-metodiki xarakterli yeni, orijinal işlənmələr) olmalıdır;

***Magistr dissertasiyasının tərtibinin qiymətləndirilməsi meyarı.***

- *dissertasiyanın ümumi qrammatik səviyyəsi.* Dissertasiyada orfoqrafiya qaydalarına əməl edilmə səviyyəsi qiymətləndirilir;

- *dissertasiya mövzusunun məntiqi ardıcıllığı və stili.* İfadənin elmi stilinin tətbiqi və peşəkar terminologiyalardan istifadəsi, məntiqi keçidlərin, əlaqələrin, aralıq və yekun nəticələrin mövcudluğu qiymətləndirilir;

***Magistr dissertasiyasının məruzəsinə verilən qiymət meyarı.***

Nümayişin (prezentasiyanın) məntiqi ardıcıllığı, işin əsas nəticələrini lakonik isbat etmək, illüstrativ nümayiş etdirmək, peşəkar terminologiyanın tətbiqi, materiala müstəqil yiyələnmək bacarığı, orfoqrafiyaya əməl etmə, reqlamentə riayət etmə qiymətləndirilir;

Daha münasib nümayiş materialının seçilməsinə, materialın məzmununun tədqiqatın əsas nəticələrinə və tövsiyələrə uyğunluğuna, cədvəllərin, şəkillərin və s. keyfiyyətli tərtibinə nəzər yetirilməlidir.

***Magistrantın suallara cavabına verilən qiymət meyarı.***

- *Suallara verilən cavabların səviyyəsi*. Suallara düzgün, yığcam, dəqiq cavab vermək bacarığı, inandırıcılıq xüsusiyyəti, öz nöqteyi-nəzərini müdafiə etmək qabiliyyəti, dissertasiyaya və ümumi istiqamət üzrə materiala tam və müstəqil yiyələnmə qiymətləndirilir.

İlkin müdafiədə magistrantın toplaya biləcəyi yekun balın maksimum qiyməti 50-yə, minimum qiyməti isə 30-a bərabərdir. İlkin müdafiədə 30 baldan az toplayan magistrant əsas müdafiəyə buraxılmır (Əlavə 4).

Müdafiəyə buraxılmayan və ya ilkin müdafiədən müvəffəq qiymət ala bilməyən magistrant işindəki nöqsanları aradan qaldırdıqdan və verilmiş tələblərə uyğun dissertasiya işini tamamladıqdan sonra təkrar müdafiəyə buraxılır.

İxtisas kafedrası dissertasiya işinin müdafiəyə buraxılmaması üçün aşağıdakı səbəbləri əsas götürür:

- dissertasiya işinin müvafiq təqdimat müddətində hazır olmaması;
- dissertasiya işinin tərtibat qaydalarına əməl olunmaması;
- tədqiqat işinin nəticələrində elmi yeniliyin olmaması;
- magistr dissertasiyasının yazılmasında plagiatlığa yol verilməsi;
- dissertasiya işi üzrə müəllifin nəşrlərinin olmaması;
- dissertasiya işi üzrə elmi rəhbərin rəyinin mənfi olması;
- müdafiə üçün zəruri sənədlərin Magistratura və doktorantura şöbəsinə vaxtında təqdim olunmaması.

Dissertasiya işi müəyyən olunmuş vaxtda və tərtib qaydalarına əsasən hazır olmadıqda magistrant barəsində ixtisas kafedrasında kafedra müdirinin təqdimatı əsasında müvafiq qərar qəbul olunur və bu barədə Magistratura və doktorantura şöbəsinə yazılı məlumat verilir.

## Magistr dissertasiyasına rəylərin verilməsi

Magistr dissertasiyasına rəhbərin rəyindən (Əlavə 5) əlavə mütləq resenzent (rəsmi rəyçi) rəy verməlidir (Əlavə 6). İxtisas kafedrası açıq müdafiəyə buraxılmış magistr dissertasiyasını müdafiəyə ən azı 15 gün qalmış rəsmi rəyçiyə göndərir.

Resenzent kimi elmi dərəcəsi olan, ali təhsil müəssisələrində, ixtisas üzrə aparıcı idarə və müəssisələrdə, elmi təşkilatlarda çalışan mütəxəssislər, Milli Aviasiya Akademiyasında tam, yarımştat və əvəzçilik qaydasında fəaliyyət göstərən professor-müəllim heyəti çıxış edə bilər.

Resenzentin rəyində aşağıdakı bölmələr öz əksini tapmalıdır:

- mövzunun aktuallığı və onun praktiki əhəmiyyəti;
- yerinə yetirilmiş işin yeniliyi;
- dissertasiya işinin yerinə yetrilməsində müəyyən edilmiş standartlara və tərtibat qaydalarına əməl olunması;
- dissertasiyada müasir tədqiqat metodlarından və yeni metodikalardan istifadə olunması;
- müəllif tərəfindən səmərəlilik, idarəetmə və rasionallığın artırılmasına yönəlmiş digər konkret işləmələr və tədqiqat sahəsində onun mümkün reallaşmasının qiymətləndirilməsi.

Eyni zamanda rəyçi müxtəlif irad və nöqsanları da

mütləq göstərməlidir. Rəyin sonunda rəyçi magistr dissertasiyasının mövcud tələblərə uyğunluğunu və onun ümumi qiymətləndirilməsini qeyd edir.

Rəy resenzentin çalışdığı təşkilatın müvafiq möhürü ilə təsdiq edilməlidir.

Rəsmi rəyçinin yazılı rəyi müdafiəyə azı 5 gün qalmış magistranta təqdim olunmalıdır. Rəsmi rəy mənfi olduqda resenzentin müdafiədə iştirakı vacibdir.

Magistratura və doktorantura şöbəsinin müdiri və kafedra müdirləri zərurət olduqda rəsmi rəyçi sayının artırılması tövsiyəsi ilə çıxış edə bilərlər.

Magistrant müdafiəyə qədər resenzentin rəyində göstərilən irad və nöqsanları qeydə almalı və müdafiə prosesində onlara cavab verməlidir.

## Magistr dissertasiyasının İxtisaslaşdırılmış şurada müdafiəsi

Magistr dissertasiyasının əsas müdafiəsi Milli Aviasiya Akademiyası rektorunun əmri ilə yaradılmış İxtisaslaşdırılmış elmi şuralar tərəfindən həyata keçirilir. Şuralar ayrı-ayrı ixtisaslar üzrə yaradılır və təqvim ili ərzində fəaliyyət göstərir. Şuranın tərkibinə Magistratura və doktorantura şöbəsinin müdiri, müvafiq kafedraların müdirləri, həmin sahə üzrə elmi dərəcə və elmi adı olan aparıcı elmlər və fəlsəfə doktorları daxil edilir. Şura üzvlərinin sayı ixtisaslaşmaların sayından asılı olaraq 7-11

nəfər olur. Mütəxəssisin şuraya daxil edilməsi üçün onun şifahi razılığı alınır.

Şurada bir neçə ixtisaslaşma üzrə dissertasiyalara baxılarsa, onun tərkibinə hər bir ixtisaslaşma üzrə ən azı iki nəfər mütəxəssis daxil edilməlidir. Bir şurada 4-dən çox ixtisaslaşma üzrə dissertasiya müdafiə oluna bilməz.

Şuranın sədri elmin müvafiq sahəsi üzrə yüksək nüfuza və müvafiq elmi məktəbə malik olan alimlər içərisindən seçilir və MAA rektorunun təqdimatı əsasında Təhsil Nazirliyi tərəfindən təsdiq edilir. Sədrin təqvim ili ərzində dəyişdirilməsi rektorun təqdimatı əsasında Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Şuranın sədr müavini, elmi katibi və tərkibi MAA rektorunun əmri ilə təyin olunur.

Magistr dissertasiyalarının şurada müdafiəsi bir qayda olaraq təhsil ilinin IV semestrinin iyun-iyul ayında həyata keçirilir.

Magistrant müdafiəyə azı 5 gün qalmış Magistratura və doktorantura şöbəsinə aşağıdakı sənədləri təqdim etməlidir:

- ərizə (müdafiəyə buraxılmaq üçün);
- magistr dissertasiyası - 1 nüsxə (cildlənməmiş çap və elektron versiya);
- referat - 1 nüsxə (çap və elektron versiya);
- elmi rəhbərin rəyi;
- resenzentin rəyi;

• magistrantın dərc olunmuş elmi məqalələrinin nüsxələri;

• magistrantın fərdi iş planı (tam doldurulmuş).

Magistrantın müdafiəyə buraxılması üçün Magistratura və doktorantura şöbəsinin müdirinə müraciət ərizəsinin forması Əlavə 7-də göstərilmişdir.

Müdafiə üçün tələb olunan sənəd və materiallar magistr tərəfindən vaxtında təqdim edilməzsə, müdafiənin vaxtı yalnız üzrlü səbəblər olduqda müəyyən edilmiş qaydalara uyğun dəyişdirilə bilər.

Müdafiə, Şuranın açıq iclasında keçirilir və iclası bir qayda olaraq onun sədri aparır. Sədr olmadıqda isə onu müavin əvəz edə bilər. Üzvlərin 2/3 hissəsinin iştirak etdiyi iclas səlahiyyətli hesab olunur. Şurada sənədləşdirmə işləri elmi katib tərəfindən həyata keçirilir. Şuranın elmi katibi iclasda iştirak etmədikdə sədr bu vəzifəni müvəqqəti olaraq üzvlərdən birinə həvalə edir.

Şura iclasının gedişi müvafiq protokolla rəsmiləşdirilir. Şura üzvlərinin iclasda iştirakı onların hər birinin elmi adı və dərəcəsi göstərilməklə həmin protokolda əks olunmalı və imzası ilə təsdiq edilməlidir.

Şuranın hər iclası 5 saat davam edə və hər bir iclasda 10-dək dissertasiya işi müdafiə oluna bilər. İclasın açılışından sonra sədr növbə ilə iclasda müdafiəyə təqdim olunmuş hər bir dissertasiya işi və magistrant, elmi katib isə magistrantın İxtisaslaşdırılmış şuraya təqdim etdiyi

sənədlərinin tərtibi və onların qəbul olunması haqqında məlumat verir.

Bir magistr dissertasiyasının müdafiəsi üçün 45 dəqiqə vaxt ayrılır. Magistrant dissertasiya işinin mahiyyəti və aldığı nəticələr haqqında 15 dəqiqədən çox olmayan vaxt ərzində məruzə edir. Sonra ona suallar verilir.

Magistrant müdafiəyə hərtərəfli və ciddi hazırlaşmalı, illüstrasiya materiallarını da daxil etməklə çıxış tezisini hazırlamalıdır. O, öz çıxışını kompüter prezentasiya proqramlarında (məsələn, Power Point) nümayiş etdirməlidir.

Magistrant öz məruzəsində aşağıdakı əsas məqamlara diqqət etməlidir:

- məruzəni qısa girişlə başlamalı və mövzunun aktuallığını açıqlamalı, işin əsas məqsədini dəqiq formalaşdırmağı və qoyulmuş tapşırıqları izah etməyi bacarmalıdır;

- magistrant dissertasiyada əldə edilmiş elmi yenilikləri və onların nəticələrini izah etməli, lakonik söz və ifadələrlə məruzəni yekunlaşdırmalı, çıxışın sonunda alınan nəticələrin müxtəlif sahələrdə tətbiqi barədə məlumat verməlidir.

Magistrant öz çıxışını ümumilikdə üç hissəyə bölməlidir. İlk hissədə o, giriş hissə barədə yığcam şəkildə şura üzvlərini məlumatlandırmalıdır. İkinci hissədə dissertasiyanın fəsillərinin ardıcıllıqla izahı verilir və alınan nəticə-

lər şərh olunur. Magistrant fikirlərini əsaslandırmaq üçün plakatlardan, sxem və cədvəllərdən, diaqramlardan, texniki vasitələrdən istifadə edir. Üçüncü hissə dissertasiyanın nəticələrinə həsr olunur. Burada alınmış nəticələr, yekunlaşdırılmış fikirlər, təkliflər, istifadə edilmiş əsas mənbələr şura üzvlərinin diqqətinə çatdırılır.

Magistrantın çıxışı və cavabları aydın, səlis, dəqiq, inamlı olmalı və elmi dəlillərlə əsaslandırılmalıdır. O, verilən suallara qısa, konkret və əsaslandırılmış cavablar verməlidir.

İddiaçının cavablarından sonra dissertasiya işi üzrə şuraya daxil olmuş rəylər oxunur. Elmi rəhbərin və rəsmi rəyçinin iştirak etdiyi müdafiə üzrə iclasda müvafiq rəylərin oxunuşu birbaşa olaraq elmi rəhbər və rəsmi rəyçinin çıxışları ilə əvəz edilir.

Magistrant rəylərdə göstərilən iradlarla razılaşa bilər və ya onlarla əsaslandırılmış şəkildə razılaşmaya bilər.

Dissertasiyanın müdafiəsi qurtardıqdan sonra Şura üzvləri dissertasiya işlərinə verdikləri yekun qiymətləri təqdim edirlər, təqdim olunmuş qiymətlərin nəticəsində orta yekun qiymət çıxarılır (müdafiənin qiymətləndirilməsi barədə mövcud qaydada səsvermə keçirirlər).

Sonda dissertasiya barədə Şura mənfi qərar qəbul edərsə (yekun qiymətləndirmə zamanı 51-dən az bal toplanarsa), onun yenidən müdafiəsinə işdəki çatışmazlıqlar aradan qaldırılmaqla, müdafiə günündən ən azı iki

ay müddət keçdikdən sonra icazə verilir. Əgər dissertasiya barədə yenidən mənfi qərar çıxarılarsa, onun yeni mövzuda təkrar (2 dəfədən çox olmamaqla) müdafiəsinə növbəti tədris ilinin məzunlarının dissertasiya müdafiəsi üçün müəyyən olunmuş müddətdə icazə verilir. Təkrar müdafiədə də dissertasiya müvəffəqiyyətlə müdafiə edilmədikdə, magistranta müvafiq proqramı dinlədiyi haqqında arayış verilir.

Müdafiədən sonra dissertasiya işi müvafiq sənədlərlə birlikdə Magistratura və doktorantura şöbəsinə təhvil verilir.

## Magistr dissertasiyasının qiymətləndirilməsi

Magistr dissertasiyasının qiymətləndirilməsi ədalətli olmalı və müvafiq qaydalara əsaslanmalıdır. Dissertasiyanın yazılmasına və müdafiəsinə görə magistrantın toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı ilkin, digər yarısı isə əsas müdafiədə verilir.

Dissertasiya işinin qiymətləndirilməsi zamanı məruzənin məntiqi quruluş və ardıcıllıqla təqdimatına, müdafiə prosesində şərh edilən materialın illüstrasiyalığına, magistrantın sual və iradları cavablandırmasına, habelə nəticələrin elmi-təcrübi əhəmiyyətliliyinə xüsusi diqqət yetirilir. Bu zaman həmçinin dissertasiyanın tərtibat qaydalarının, mövzu ilə əlaqədar dərc olunmuş məqalə və tezislərin

kəmiyyət və keyfiyyəti, işin aprobasiyası da nəzərə alınmalıdır.

Magistrant dissertasiyanın əsas müdafiəsində maksimum 50 balı aşağıdakı meyarlara əsasən toplayır:

- Dissertasiya işinin məzmunu (0-10 bal);
- Magistrantın məruzəsi (0-20 bal);
- Magistrantın sualları cavablandırması (0-20 bal).

Şura üzvlərinin hər biri magistr dissertasiyasının müdafiə edilməsinin qiymətləndirilməsi üzrə müvafiq cədvəldə qeydlər aparır (Əlavə 8). Sonda ümumi yekun qiymət magistr dissertasiyalarının əsas müdafiə cədvəlində qeyd edilərək şura üzvlərinin imzası ilə təsdiqlənir (Əlavə 9). Müdafiənin nəticəsi elmi katib tərəfindən magistr dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşdırılmış şuraların iclas protokollarına yazılır. Protokolu bütün şura üzvləri imzalayır.

Magistr dissertasiyasının hazırlanması və müdafiəsi üzrə toplanan balların yekun miqdarına görə qiymət aşağıdakı kimi təyin edilir:

| | | | | |
|---|---|---|---|---|
| 51 baldan aşağı | – | “qeyri- kafi” | – | F |
| 51 – 60 bal | – | “qənaətbəxş” | – | E |
| 61 – 70 bal | – | “kafi” | – | D |
| 71 – 80 bal | – | “yaxşı” | – | C |
| 81 – 90 bal | – | “çox yaxşı” | – | B |
| 91 – 100 bal | – | “əla” | – | A |

## İstifadə olunmuş ədəbiyyat


1. Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 nömrəli qərarı.
2. Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12.05.2010-cu il tarixli 88 nömrəli qərarı.
3. Magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə. Azərbaycan Respublikasi Təhsil Nazirinin 20.04.1998-ci il tarixli  202 nömrəli əmri.
4. Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında Əsasnamə. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.02.1997-ci il tarixli 15 nömrəli qərarı ilə təsdiq olunub).
5. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bülleteni, Bakı: Elm, 2013, 176 s.
6. Magistrlik dissertasiyasının müdafiəsi üçün İxtisaslaşdırılmış elmi şuralar haqqında Əsasnamə. Azərbaycan Respublikası Təhsil Nazirinin 10.11.1998-ci il tarixli 742 nömrəli əmri.

7. Bayramov İ. Magistr dissertasiyasının hazırlanması, elmi-pedaqoji və elmi-tədqiqat təcrübələrinin təşkil edilməsinə dair metodik göstərişlər. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Bakı, 2010, 66 s.
8. İsrafilov H.A., Hacızadə E.M. Magistr dissertasiyasının yerinə yetirilməsi, elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrin təşkilinə dair metodik göstərişlər toplusu. Bakı, İqtisad Universiteti, 2007, 134 s.
9. İsmayılov X.A. Magistr hazırlığı üzrə yaddaş kitabçası. Bakı, Qafqaz Universteti nəşri, 2012, 60s.
10. Piriyev H. Magistrlik dissertasiyası və onun müdafiəsi. – Bakı, Hərbi Nəşriyyat, - 2015, 56 səh.
11. Кузин Ф.А. Магистрская диссертация. Методика написания, правила оформления и порядок защиты. Москва, Ось-89, 1997, 304 с.
12. Мидуков В.З. Итоговая государственная аттестация: магистерская диссертация: методическое пособие для студентов факультета технологии и предпринимательства. Томск, Издательство ТГПУ, 2011, 64 с.
13. Новожилов Э.Д. Научное исследование (логика, методология, эксперимент). Москва, Физматлит, 2005, 363 с.
14. Трубчанинов А.Д., Бакланов Е.В. Магистерская диссертация. Методика написания, правила оформления, порядок защиты. Методические

указания. Кемерово 2003, Типография ГУ КузГТУ, 49 с.
15. Мухамеджанова Н.М. Магистерская диссертация: методические указания. Оренбург: ИПК ГОУ ОГУ, 2011, 36 с.
16. Конюков А.Г. Написание, оформление и защита магистерской диссертации: методические указания. Нижегор. гос. архитектур.-строит. ун-т. Н.Новгород: ННГАСУ, 2011, 19 с.
17. Ромашов В.В. Методические указания по выполнению и защите магистерской диссертации по направлению подготовки Радиотехника. Муром: Изд.-полиграфический центр МИ ВлГУ, 2012, 52 с.

*Əlavə 1*

**"AZƏRBAYCAN HAVA YOLLARI" QSC**
**MİLLİ AVİASİYA AKADEMİYASI**

*Əlyazma hüququnda*

______________________________
*(magistrantın adı, atasının adı, soyadı)*

**MAGİSTR DİSSERTASİYASI**

***Mövzu:*** ________________________________________
________________________________________

***İxtisasın şifri və adı:***________________________________
________________________________________

***İxtisaslaşma:***_____________________________________
________________________________________

***Elmi rəhbər:***______________________________________
*(adı, atasının adı, soyadı, elmi adı, elmi dərəcəsi)*

**Bakı – 20__**

*Əlavə 2*

«AZƏRBAYCAN HAVA YOLLARI» QSC
MİLLİ AVİASİYA AKADEMİYASI

*Əlyazma hüququnda*

________________________________
*(adı, atasının adı, soyadı)*

Magistr dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**REFERATI**

***Mövzu:*** ____________________________________________
____________________________________________

***İxtisasın şifri və adı:***________________________________
____________________________________________

***İxtisaslaşma:***______________________________________
____________________________________________

**Bakı – 20__**

Dissertasiya işi Milli Aviasiya Akademiyasının ________
*(kafedranın adı)*
kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**

__________________ ____________________
*(elmi dərəcəsi, elmi adı)* *(adı, atasının adı, soyadı)*

**Rəsmi rəyçi:**

__________________ ____________________
*(elmi dərəcəsi, elmi adı)* *(adı, atasının adı, soyadı)*

Magistr dissertasiya işinin müdafiəsi "___ " __________ 20__-__il tarixdə saat ___ Milli Aviasiya Akademiyasının ____ tədris binasında _____ auditoriyada keçiriləcəkdir.

Ünvan: AZ1045, Bakı ş., Mərdəkan pr. 30, MAA.

Dissertasiya işi ilə MAA-nın kitabxanasında tanış olmaq olar.

*İxtisaslaşdırılmış şuranın elmi katibi* ____________________
*(elmi dərəcəsi, elmi adı, a.a.s.)*

*Əlavə 3*

**“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti**
**Milli Aviasiya Akademiyası**

“Təsdiq edirəm”
Magistratura və doktorantura
şöbəsinin müdiri ___________
“____” ________ 20__ il

## MAGİSTRANTIN FƏRDİ İŞ PLANI

1. Adı, atasının adı, soyadı ____________________________
2. İxtisasın şifri və adı _______________________________
3. İxtisaslaşmanın adı _________________________________
4. Magistraturada təhsil aldığı dövr ____________________
5. Elmi rəhbər ________________________________________
6. Magistr dissertasiyasının mövzusu ________________

______________________________________________________

(Mövzu MAA üzrə “____” _______ 20___ tarixli ___ №-li əmrlə təsdiq olunmuşdur.

7. Dissertasiya mövzusunun seçilməsinin əsaslandırılması ______________________________________________

______________________________________________________

______________________________________________________

______________________________________________________

Elmi rəhbərin imzası _________________________________

*Əlavə 3-ün davamı*

| Plan üzrə görüləcək işlər | İşin yerinə yetirmə müddəti | Rəhbərin qeydləri |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| Magistrantın imzası____________ Elmi rəhbərin imzası ____________ | | |

Attestasiyanın nəticəsi_________________________________
_________________________________________________________

Attestasiya keçirilmişdir: “_____”____________ 20__ il
Attestasiya komissiyasının üzvləri: 1.____________________
2. ___________________
3. ___________________

*Əlavə 3-ün davamı*

## Magistr dissertasiyasının yerinə yetirilməsi mərhələləri və müddəti qrafiki

| | |
|---|---|
| Dissertasiya mövzusunun, elmi rəhbərin kafedrada müəyyənləşdirilməsi və təsdiqi → | I semestr 15.09 – 15.10 |
| Dissertasiya mövzusunun və elmi rəhbərin fakültə Elmi Şurasında təsdiqi → | I semestr 15.10 – 15.12 |
| Dissertasiya üzrə iş planının hazırlanması → | I semestr 15.10 – 15.12 |
| Dissertasiyanın hazırlanması → | I – IV semestr |
| Dissertasiyanın və referatın elmi rəhbərə təqdim edilməsi → | IV semestr aprel |
| Dissertasiyanın kafedrada ilkin müzakirəsi → | IV semestr may |
| Dissertasiya işinin rəsmi rəyçiyə göndərilməsi → | IV semestr iyun |
| Rəsmi rəyçinin rəyinin magistranta və ya Şuraya təqdim edilməsi → | IV semestr Müdafiəyə ən azı 5 gün qalmış |
| Magistr dissertasiyasının İxtisaslaşdırılmış Şurada müdafiəsi → | IV semestr 08.06 – 06.07 |

*Əlavə 4*

**MİLLİ AVİASİYA AKADEMİYASI**
**MAGİSTR DİSSERTASİYASININ İLKİN MÜDAFİƏ CƏDVƏLİ**

20____/______ - tədris ili
Şöbə: Magistratura və doktorantura
Kafedra: ____________________________________________
İxtisas: _______________________________________________
İxtisaslaşma: __________________________________________
İlkin müdafiə tarixi: "____" _____________ 20___ il

| № | Magistrantın soyadı, adı və atasının adı | Dissertasiya işinin məzmunu (0-20) | Dissertasiya işinin tərtibatı (0-10) | Magistrantın məruzəsi (0-10) | Magistrantın sualları cavablandırması (0-10) | Kafedrada ilkin müdafiənin qiyməti (0-50) |
|---|---|---|---|---|---|---|
| 1. | | | | | | |
| 2. | | | | | | |
| ... | | | | | | |

Komissiyanın sədri: ___________________________________
Magistratura və doktorantura şöbəsinin müdiri: __________

*Əlavə 5*

**Milli Aviasiya Akademiyasının ___(kafedranın adı)______ kafedrasının _(qrupun adı)_ qrup magistrantı __(magistrantın adı, atasının adı və soyadı) __(magistr dissertasiyasının adı) mövzulu magistr dissertasiyasına**

**elmi rəhbərin rəyi**

(Elmi rəhbər rəydə aşağıda qeyd olunanları əks etdirməlidir)

1. Mövzunun aktuallığı, onun əhəmiyyətinin dərəcəsi.
2. Dissertasiyanın ümumi xarakteristikası. Həcmi, strukturu, cədvəllərin, şəkillərin, əlavələrin sayı.
3. Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.
4. Nəticələrin dürüstlüyü.
5. Qoyulan məsələlərin orijinal həlli.
6. Magistr dissertasiyasının əsas müddəalarını əhatə edən nəşrlər.
7. Ümumi nəticə.

Bütövlükdə magistr dissertasiyası (*yüksək / orta / aşağı*) elmi səviyyədə yazılmışdır, (*dərin / orta*) səviyyədə işlənmiş analitik hissəyə malikdir, material (*məntiqi / qeyri-məntiqi*) ardıcıllıqla yerinə yetirilmişdir.

(*Magistrantın adı, atasının adı, soyadı*) dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyinin qüvvədə olan tələblərinə cavab verir. Müəllif "magistr" elmi-ixtisas dərəcəsini almağa layiqdir.

Elmi rəhbər,
vəzifəsi, elmi dərəcəsi, elmi adı ________________ A.A.S.
(*imza*)

*Əlavə 6*

**Milli Aviasiya Akademiyasının** ______*(kafedranın adı)*________ **kafedrasının** ________*(ixtisasın şifri və adı)*_____________ **ixtisası üzrə təhsil alan magistrantı** ______*(magistrantın adı, atasının adı və soyadı)*______ ________*(magistr dissertasiyasının adı)*___________ **mövzulu magistr dissertasiyasına**

**rəsmi rəyçinin (resenzentin) rəyi**

(Resenzentin rəyində aşağıda qeyd olunanlar əks olunmalıdır)

1. Aktuallıq və magistr hazırlığı istiqamətinə uyğunluq.
2. Nəticələrin, elmi müddəaların və tövsiyələrin əsaslandırılması.
3. Nəticələrin, elmi müddəaların yeniliyi və dürüstlüyü.
4. Problemin həllində müəllifin şəxsi töhfəsi.
5. Alınmış nəticələrin praktiki əhəmiyyəti.
6. Dissertasiyanın mövzusu üzrə nəşrlər.
7. Mübahisəli məqamlar, çatışmazlıqlar, iradlar və tövsiyələr.

Bütövlükdə magistr dissertasiyası (*yüksək / orta / aşağı*) elmi səviyyədə yazılmışdır, (*dərin / orta*) səviyyədə işlənmiş analitik hissəyə malikdir, material (*məntiqi / qeyri-məntiqi*) ardıcıllıqla yerinə yetirilmişdir.

Təqdim olunan dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyinin qüvvədə olan tələblərinə cavab verir. (*Magistrantın adı, atasının adı, soyadı*) "magistr" elmi-ixtisas dərəcəsi verilə bilər.

**Rəsmi rəyçi,**
vəzifəsi, elmi dərəcəsi, elmi adı ________________ A.A.S.
(*imza*)
*(Rəsmi rəyçinin işlədiyi müəssisənin möhürü)*

*Əlavə 7*

**Magistratura və doktorantura şöbəsinin müdiri**

______________________________

*(adı, soyadı)*

____________ qrup magistrantı

______________________________

*(adı, atasının adı, soyadı)*

**tərəfindən**

**ƏRİZƏ**

Yazıb Sizə bildirirəm ki, ____________________________ ________________________________ mövzusunda magistr dissertasiyasını yekunlaşdırmış və kafedrada ilkin müdafiədən keçmişəm. İlkin müdafiə komissiyasının qərarı ilə magistr işim İxtisaslaşdırılmış şurada müdafiəyə tövsiyə olunmuşdur.

Ərizəmə təqdim etdiyim aşağıdakı sənədlər əsasında mənim müdafiəyə buraxılmağıma icazə verməyinizi Sizdən xahiş edirəm.

1. Magistr dissertasiyası - 1 nüsxə (cildlənməmiş çap və elektron versiya);
2. Referat - 1 nüsxə (çap və elektron versiya);
3. Elmi rəhbərin rəyi;
4. Resenzentin rəyi;
5. Dərc olunmuş elmi məqalələrin nüsxələri;
6. Fərdi iş planı.

İmza:

Tarix:

*Əlavə 8*

**MİLLİ AVİASİYA AKADEMİYASI**
**DİSSERTASİYA İŞİNİN MÜDAFİƏ CƏDVƏLİ**

20___/20______ tədris ili

Şöbə: Magistratura və doktorantura

İxtisas: ____________________________________________________________

İxtisaslaşma: ______________________________________________________

Müdafiənin keçirildiyi tarix : "____" ___________ 20___ il

| № | Magistrantın soyadı, adı və atasının adı | Kafedrada ilkin müdafiənin qiyməti (0-50) | Dissertasiya işinin məzmunu (0-10) | Magistrantın məruzəsi (0-20) | Magistrantın sualları cavablandırması (0-20) | İxtisaslaşdırılmış şurada müdafiənin qiyməti (0-50) |
|---|---|---|---|---|---|---|
| 1. | | | | | | |
| 2. | | | | | | |
| ... | | | | | | |

Müdafiə komissiyasının üzvü ______________________________

*Əlavə 9*

**MİLLİ AVİASİYA AKADEMİYASI**

MAGİSTR DİSSERTASİYASININ MÜDAFİƏ CƏDVƏLİ

Semestr: IV 20__ / 20__ tədris ili
Şöbə: Magistratura və doktorantura
Qrup: _______
Kurs: _______
İxtisas: ____________________________________________
İxtisaslaşma: _______________________________________
Müdafiənin keçirildiyi tarix: "____" __________ 20__ il

| Sıra № | Soyadı, adı, atasının adı | İlkin müdafiədə topladığı bal | Əsas müdafiədə topladığı bal | Yekun bal | Yekun qiymət |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| ... | | | | | |

İxtisaslaşdırılmış şuranın sədri: ____________________
İxtisaslaşdırılmış şuranın sədr müavini: _____________
İxtisaslaşdırılmış şuranın elmi katibi: _______________
İxtisaslaşdırılmış şuranın üzvü: ___________________
_________________________________
_________________________________
_________________________________

Magistratura və doktorantura şöbəsinin müdiri _______

Metodik vəsait “Mülki Aviasiya” redaksiya
heyəti tərəfindən baxılmış və çapa
icazə verilmişdir.

05.11.2017
Texniki korrektor: Əliyeva O.V.

Metodik vəsait “Azərbaycan Hava Yolları”
Qapalı Səhmdar Cəmiyyəti
Milli Aviasiya Akademiyasının
Poliqrafiya Mərkəzində çap olunmuşdur.
Tirajı 30 nüsxə.